

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 234 (21.386)

28 noyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı bildirib ki, G20-nin Antalyada keçirilən Zirvə toplantısı bir çox məsələlərdə Türkiyənin mövqeyinin mühüm rola malik olduğunu göstərdi. Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə uğurla əməkdaşlıq etdiyini bildirib.

Mövlud Çavuşoğlu Azərbaycanın G20-nin Antalyada keçirilən Zirvə toplantısında iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O qeyd edib ki, Azərbaycan belə bir toplantıda iştirak etməklə Türkiyənin mövqeyini daha da gücləndirib. Mövlud Çavuşoğlu Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə gələcəkdə daha da inkişaf etdiriləcəyinə, iki qardaş ölkənin prezidentlərinin liderliyi ilə bu əlaqələrin bundan sonra da yüksək səviyyəyə qaldırılacağına əminliyini ifadə edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olunub, Azərbaycan ilə Türkiyənin həyata keçirdikləri TANAP, TAP, Bakı-Tbilisi-Qars və digər layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparılıb.



## Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi qeyd olunmuşdur





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il martın 29-da "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamış və yubileylə bağlı Tədbirlər Planını təsdiq etmişdir. Tədbirlər Planına əsasən, Naxçıvan Musiqi Kollecinin binasında yenidənqurma işləri aparılmışdır.

Noyabrın 27-də Naxçıvan Musiqi Kollecinin binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.





Məlumat verilmişdir ki, yenidənqurma işləri zamanı kollecin maddi-texniki bazası möhkəmləndirilmiş, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan binada tədrisin nümunəvi təşkili üçün hər cür şərait yaradılmışdır. Kollecdə 5-i elektron lövhəli olmaqla, 70 sinif otağı, kompüter və müəllimlər otaqları, kitabxana, iclas və idman zalları, xoreoqrafiya sinfi, hərbi kabinə, səsyazma studiyası, arxiv və bufet vardır. Sinif otaqlarında tədris olunan ixtisaslara uyğun musiqi alətləri və avadanlıqlar qoyulmuşdur.

Kollecin kompüter sinfində 23 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli siniflərdə muzeylərlə video-əlaqələr yaratmaq və virtual dərslər keçmək imkanı vardır. Həmçinin tələbələr bu siniflərdə musiqi nəzəriyyəsinə aid elektron dərsliklərdən istifadə etməklə, eləcə də müxtəlif konsert proqramlarını izləməklə bilik və bacarıqlarını artıracaqlar. Kitabxana dünya klassiklərinin, Azərbaycan və Naxçıvan bəstəkarlarının əsərləri, milli musiqi sənətinə, bəstəkar və xalq mahnılarına aid dərsliklər və digər ədəbiyyatlarla zənginləşdirilmişdir.

Ali Məclisin Sədri qədim musiqi aləti olan "Naxçıvan tənburu"nu Musiqi Kollecinə hədiyyə etmiş, kollecdə Azərbaycan xalq musiqisi sinfinin yaradılması, sinfin milli musiqi nəzəriyyəsinə aid ədəbiyyatlarla və xalq çalğı alətləri ilə zənginləşdirilməsi barədə tapşırıq vermişdir.

Sonra Naxçıvan Musiqi Kollecinin kollektivi ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək abidə önünə gül dəstələri qoymuşlar.

Həmin gün Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Musiqi Kollecinin 40 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi münasibətilə kollecin müəllim və tələbələrini təbrik edərək demişdir: Hər bir xalqın milli və mədəni dəyərlərini təcəssüm etdirən mühüm vasitələrdən biri də onun musiqisidir. Qədim Şərq filosofları deyirdilər ki, bir millətin xarakterini bilmək üçün o millətin musiqisini dinləmək lazımdır. Azərbaycan musiqisi xalqımızın zəngin mədəniyyətini və milli dəyərlərini bütün dünyaya nümayiş etdirir. Mərasim-məişət nəğmələrimiz, muğam və aşıq yaradıcılığımız, Naxçıvandakı Gəmiqaya abidələrində əks olunan yallı elementləri bir tərəfdən bəşəriyyətin ilkin melodiya və ritm sənəti haqqında məlumat verirsə, digər tərəfdən musiqi mədəniyyətimizin nə qədər qədim və zəngin olduğunu göstərir.

Ali Məclisin Sədri demişdir: Bu gün milli musiqi sənətimiz özünün inkişaf dövrünü yaşayır. Bu inkişafın əsası ötən əsrin 70-80-ci illərində qoyulmuşdur. Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə digər sahələrdə olduğu kimi, xalqın tarixi keçmişinə və milli dəyərlərə münasibətdə də köklü dəyişikliklər baş verdi. Əgər əvvəllər Novruz bayramının keçirilməsinə icazə verilmirdisə, "Kitabi-Dədə Qorqud" dastanı hakimiyyət orqanları tərəfindən ittiham olunur və qadağan edilirdisə, 1970-ci ildən başlayaraq Novruz bayramı böyük el şənliyi kimi qeyd olundu, "Kitabi-Dədə Qorqud" dastanına ikinci həyat verildi. Dastanla bağlı elmi tədqiqatlar aparıldı, kitablar nəşr olundu, ikiseriyalı "Dədə Qorqud" bədii filmi çəkildi. Əgər əvvəllər rəsmi dövlət tədbirləri zamanı konsert proqramlarında sovet mədəniyyətinin daşıyıcısı olan əsərlərə üstünlük verilirdisə, 70-80-ci illərdə keçirilən tədbirlərin repertuarlarında artıq böyük Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Arif Məlikovun, Tofiq Quliyevin əsərləri üstünlük təşkil edirdi. Azərbaycan xalqının ruhunu professional şəkildə ifadə edən tar, kaman, balaban, zurna, saz, qanun kimi alətlərin orkestrlərdə təmsil olunması, Şərur-Naxçıvan yallılarına geniş yer ayrılması zəngin mənəvi dəyərlərimizə göstərilən böyük qayğının ifadəsi idi.

Qeyd olunmuşdur ki, ümummilli liderimizin "Respublikada musiqi ifaçılığı sənətinin vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı hələ o dövrdə bədii kollektivlərin, xüsusən də estrada və vokal instrumental kollektivlərinin peşəkarlığının, səhnə və ifaçılıq mədəniyyətinin artırılmasına öz təsirini göstərdi. Xalq yaradıcılığının, musiqi sənətinin inkişafı üçün tədbirlər görüldü,

Ardı 2-ci səhifədə






orta və ali təhsilli musiqiçi kadrların hazırlanmasına diqqət artırıldı, musiqi məktəblərinin şəbəkəsi genişləndirildi, şəhər və kəndlərdə yeni musiqi məktəbləri yaradıldı. Həmin dövrdə yeni yaradılan musiqi məktəblərindən biri də Naxçıvan Musiqi Kolleci idi. Ümummilli liderimizin himayəsi ilə 1975-ci ildə fəaliyyətə başlayan bu təhsil ocağı ötən 40 ildə böyük yol keçmişdir. Kollec orta ixtisaslı musiqiçi kadrların və mütəxəssislərin hazırlanması, xalq musiqisi ənənələrinin yaşadılması, eləcə də klassik və dünya musiqisinin öyrənilməsi və təbliği sahəsində səmərəli fəaliyyət göstərir. Naxçıvan Musiqi Kollecini bitirən 3 minə yaxın məzun bu gün mədəniyyət müəssisələrində, uşaq musiqi məktəblərində çalışaraq Azərbaycan musiqi mədəniyyətinin inkişafına öz töhfələrini verirlər.

Ali Məclisin Sədri Azərbaycan mədəniyyətinin inkişafında, musiqi sənətimizin gənc nəslə öyrədilməsi və yaşadılmasında səmərəli fəaliyyətinə görə Naxçıvan Musiqi Kollecinin kollektivinə təşəkkür etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir. O, hər bir ölkədə xalqın mənəvi aləminin parlaq ifadəsi olmaqla onun dünyada tanınmasında, beynəlxalq əlaqələrinin genişlənməsində mühüm rol oynayır"***, – fikrini xatırladaraq demişdir: Bu gün ölkəmizdə mədəniyyətin, xüsusilə də musiqi sənətinin inkişafı əsas vəzifələr sırasındadır. Muxtar respublikamızda da musiqi sənəti öz inkişaf dövrünü yaşayır. Hər il Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə uşaq musiqi məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verilir, gənc nəslə milli dəyərlərimizin və musiqi sənətimizin aşılanması istiqamətində tədbirlər görülür. Bu tədbirlər öz bəhrəsini verir. Naxçıvanda yeni bəstəkarlar, ifaçılar, gənc musiqiçilər nəsli yetişir. Lakin görülən tədbirlərlə kifayətlənmək olmaz. Naxçıvan Dövlət Universiteti və Naxçıvan Musiqi Kolleci gənc musiqiçi kadrların hazırlıq səviyyəsini artırmalıdırlar. Mədəniyyət və Turizm Nazirliyi uşaq musiqi məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsinə nail olmalıdır.

Ali Məclisin Sədri demişdir ki, Naxçıvan Muxtar Respublikasında istedadlı gənclər çoxdur. Təhsil, eləcə də Mədəniyyət və Turizm Nazirliyi istedadlı gənclərin elektron məlumat bazasını yaratmalı, gənclər himayə olunmalı, onlarla iş təkmilləşdirilməlidir. Aid təşkilatlar tərəfindən hamiliyə götürülən ayrı-ayrı dövlət sosial proqramların ... 

Aid təşkilatlar tərəfindən hamiliyə götürülən gənclərin musiqi ixtisasları üzrə peşəkar kadrların hazırlanması, muxtar respublikanın mədəniyyət və musiqi müəssisələrində onların təcrübə keçmələri üçün lazımi şəraitin yaradılması və müvafiq sahədə işlə təminat diqqətdə saxlanılmalıdır. Televiziya və radiolar musiqi mədəniyyətinin formalaşmasında və təbliğində mühüm rol oynayırlar. Teleradiolarda milli və klassik musiqilərə üstünlük verilməlidir. Musiqi kollektivləri öz repertuarlarını daim yeniləməli, qədim folklor nümunələrinin, xalq mahnı və musiqilərinin, yallıların nota köçürülməsi və yaşadılması sahəsində fəaliyyət bundan sonra da davam etdirilməlidir.

"Musiqi təhsili alan gənclər bilməlidirlər ki, onlar gələcəkdə xalqımızın zəngin və qədim tarixə malik mədəniyyətini yaşadacaq və təbliğ edəcəklər. Ona görə də musiqi ixtisasına yiyələnmək istəyən gənclər musiqi sənətini mükəmməl öyrənməlidirlər", – deyən Ali Məclisin Sədri bu vəzifələrin icrasında uğurlar arzulamış, Naxçıvan Musiqi Kollecinin kollektivini yubiley münasibətilə bir daha təbrik etmişdir.

Sonra Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülən gənc istedadlara mükafatların təqdimatı olmuşdur.

Ali Məclisin Sədri fəxri adların döş nişanlarını və vəsiqələrini, adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılmış və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş Naxçıvan Musiqi Kollecinin tələbəsi Səkinə Quliyevaya və Culfa Şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Uğur Ramazanlıya mükafatları təqdim etmişdir.

Təltif olunanlardan Azərbaycan Dövlət Filarmoniyasının solisti Eytiram Hüseynov "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti" fəxri adına layiq görüldüyünə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bu adı öz fəaliyyəti ilə doğruldacağını bildirmişdir.

Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov tədbirdə çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi təhsil siyasəti muxtar respublikamızda uğurla davam etdirilir, informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunan müasir məktəb binaları tikilib istifadəyə verilir. Bu il Naxçıvan Musiqi Kollecinin binasının əsaslı şəkildə yenidən qurulması və kollecin 40 illik yubileyinin qeyd olunması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bütün bunlar muxtar respublikada təhsilə, gənclərin hərtərəfli inkişafına göstərilən qayğının ifadəsidir. Kollecin tələbələri ölkəmizdə, o cümlədən muxtar respublikada keçirilən müsabiqələrdə uğurla çıxış edirlər. Hazırda kollecdə 11 ixtisas üzrə 562 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 156 müəllim və konsertmeyster məşğul olur. Həsən Seyidov göstərilən diqqət və qayğıya görə kollektiv adından minnətdarlıq etmiş, ixtisaslı musiqiçi kadrların hazırlanmasında fəaliyyətlərini daha da gücləndirəcəklərinə söz vermişdir.

Sonra Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələri maraqlı konsert proqramı ilə çıxış etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 158 min nəfəri ötmüşdür

***Ölkəmizdə sosial müdafiə sahəsində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri dövlət sosial sığorta sistemində fərdi uçotun təşkili idi. Fərdi uçot Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, pensiya və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan barədə məlumatların uçotunu təşkil və aparılmasını nəzərdə tutur. Bu sistemin formalaşdırılmasında əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqları ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasından ibarətdir. Fərdi uçot sisteminin əsas məqsədlərindən biri də sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə şərait yaratmaqdır.***

Muxtar respublikada da sığorta-pensiya sisteminin inkişafına yüksək diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri yaradılmış, sığorta-pensiya sistemi yüksək səviyyədə qurulmuşdur. Bu, əhalinin həmin sistemin üstünlüklərindən maksimum yararlanmasına şərait yaratmışdır.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən hazırlanmış xüsusi proqram təminatı vasitəsilə 2006-cı ilə qədər işləmiş vətəndaşların iş stajları toplanaraq fondun yerli orqanlarına təhvil verilmişdir. Bundan sonra fondun yerli orqanları təhvil aldıqları məlumatları hər bir sığortaolunanın fərdi hesabına işləmişdir. Fond tərəfindən görülən tədbirlər nəticəsində məcburi dövlət sosial sığorta sistemində fərdi uçotun tətbiqi dairəsi daha da genişlənməkdədir. Belə ki, fondun fərdi uçot sistemində fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 1 noyabr 2014-cü il tarixə 150283 nəfər olmuş, cari ilin yanvar-oktyabr aylarında sığortaolunanların uçota alınması mütəmadi olaraq davam etdirilmişdir. 1 noyabr 2015-ci il tarixə sosial sığorta nömrəsi ilə təmin edilərək fərdi hesab açılmış sığortaolunanların sayı Naxçıvan şəhəri üzrə 43527 nəfər, Babək rayonu üzrə 24432 nəfər, Şərur rayonu üzrə 41940 nəfər, Ordubad rayonu üzrə 13149 nəfər, Culfa rayonu üzrə 13332 nəfər, Şahbuz rayonu üzrə 8305 nəfər, Kəngərli rayonu üzrə 8746 nəfər, Sədərək rayonu üzrə 4741 nəfər olmaqla, ümumilikdə, muxtar respublika üzrə 158 min nəfəri ötmüşdür. Qeyd etmək lazımdır ki, fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı ilin əvvəlinə nisbətən 5699 nəfər artmışdır ki, bu da muxtar respublikadakı iqtisadi inkişafa uyğun olaraq, yeni iş yerlərinin yaradılmasının, habelə sosial sığorta sistemində təbliğat işlərinin gücləndirilməsi və iştirakçıların aktivliyinin artırılmasının göstəricisidir.

Modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruridir. Çoxsaylı pensiyaçı və sığortaolunanlara müasir əsaslarla xidmətin təşkili məsələlərinin həllində Dövlət Sosial Müdafiə Fondu öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Naxçıvan Muxtar Respublikasında müasir avtomatlaşdırılmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya-kommunikasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görülməkdədir.

Fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin innovativ yeniliklər və müasir texnologiyalar əsasında səmərəli təşkili və təkmilləşdirilməsi işi bu gün də uğurla davam etdirilir. Elektron xidmətlərdən biri də "sığortaolunanın onlayn uçota alınması"dır. Qeyd etmək lazımdır ki, bu xidmətdən yalnız Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən verilmiş möhür hüququ olan elektron imza sahibləri istifadə edə bilərlər. Sığortaolunanın onlayn uçota alınması elektron xidmətindən istifadə etmək üçün sığortaedən elektron xidmətlər bölməsindən "sığortaolunanın onlayn uçota alınması" elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş ərizə fondun yerli orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir. Sığortaedən tərəfindən elektron formada göndərilmiş elektron ərizə formalarına Dövlət Sosial Müdafiə Fondu tərəfindən baxılır. Təqdim edilmiş elektron ərizə formaları yoxlandıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır və onun soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi və sosial sığorta nömrəsi (SSN) əks olunan dövlət sosial sığorta şəhadətnaməsi bir ay ərzində rəsmiləşdirilir. Bu xidmət sığortaedənə yeni işə qəbul olunmuş işçini fonda gəlmədən və heç bir sənəd təqdim etmədən fərdi qaydada onlayn şəkildə uçota almaq imkanı yaradır.

Fond tərəfindən qarşıya qoyulan ən başlıca vəzifələrdən biri olaraq muxtar respublikada bütün işləyən vətəndaşların – sığortaolunanların fərdi uçotunun aparılması və sığortaolunanlara dövlət sosial sığorta şəhadətnaməsinin verilməsi davam etdirilir.

**Rza QARAYEV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

*Məşğulluq tədbirlərinin çevik formalarından biri də muxtar respublikanın bütün bölgələrində ildə bir neçə dəfə keçirilən əmək yarmarkalarıdır.*

# Culfa rayonunda əmək yarmarkası keçirilib

Dünən Culfa rayonunda ilin növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə açan rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov bildirib ki, yarmarkanın keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaq, eyni zamanda işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin və işaxtaran vətəndaşların fəal iştirakını təmin edir.

Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşı Mübariz Möhsünov rayonda son illərdə həyata keçirilən infrastruktur quruculuğundan, sahibkarlığa göstərilən dövlət dəstəyindən və aqrar sahənin inkişafı istiqamətində görülən işlərdən bəhs edib. Qeyd olunub ki, ötən il keçirilən əmək yarmarkalarında 272 nəfər, cari ilin 10 ayında isə 251 nəfər işlə təmin olunub.

Sonra yarmarkaya gələnlər onlara təqdim edilən boş iş yerləri ilə tanış olublar. 17 təşkilatdan 121 boş iş yerinin çıxarıldığı yarmarkada 18 nəfərə işə göndəriş verilib.

**Səbuhi HÜSEYNOV**

# Muxtar respublikamızda yüksəkkeyfiyyətli internet xidmətləri göstərilir



***Yüksək texnologiyalar dövrü adlandırılan XXI əsrdə postsənaye ölkələrinin iqtisadiyyat və infrastrukturunun səviyyəsinin universal ölçüsünün informasiya-kommunikasiya texnologiyalarının (İKT) təşkil etməsi birmənalı amillərdən hesab edilir. Çünki dünya sivilizasiyasının sürətli inkişafında informasiya texnologiyaları böyük əhəmiyyətə malikdir. Bu səbəbdən hər bir xalqın inkişafında, zamanla ayaqlaşmasında İKT-nin rolu barədə geniş danışmaq olar. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir və bu prosesin zəruriliyi indiki qloballaşma dövründə daha çox hiss olunur. Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır.***

Son dövrlərdə sosial media getdikcə daha da genişlənir. Və bu yolla İKT-nin həyatımızdakı rolu artır. Demək olar ki, hər birimiz gündəlik həyatımızda xəbər saytlarından istifadə edirik. Bunlar elə saytlardır ki, istifadəçilər həm oxuya, həm də münasibət bildirə bilirlər. İnformasiyanı bölüşmək və müzakirəyə çıxarmaq üçün də internet alətləri mövcuddur. Bu cür xəbər oxumaq isə hər yerdə mümkündür. Evdə, avtobusda, səyahətdə və sair. Beləliklə, İKT asan və sürətli informasiya əldə etməyimizdə mühüm vasitədir. Bundan başqa, telefonu əvəzləyən və ünsiyyətin müasir versiyaları sayıla biləcək facebook, twitter, google+ və sair kimi sosial şəbəkələr bizim fiziki dünyamızın virtual forması kimi insanları bir yerə toplayır. Uzaq məsafələrlə görüntülü əlaqə saxlaya biləcəyimiz və çox ucuz başa gələn, ani ünsiyyət vasitələri olan whatsapp, skype, google talk, viber, tango və sair proqramlar vasitəsi ilə bütün dünya ilə canlı telefon bağlantısı yaradılır, internet üzərindən videokonfranslar keçirilir, sayt və proqramlar, bloqlar sayəsində insanların bir-biri ilə ünsiyyətinə və informasiya mübadiləsinə şərait yaranır. Bu isə İKT-yə marağı daha da artırır.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da rabitə və informasiya texnologiyaları yeni inkişaf mərhələsindədir. Muxtar respublikamızda informasiyalaşdırma sahəsində ciddi, uğurlu addımlar atılmışdır. Diyarımızda bu inkişafın davamlılığını təmin etmək məqsədilə reallaşdırılmış məqsədyönlü tədbirlər hazırkı sosial-iqtisadi inkişafda bu sahənin rolunu artırmaqdadır.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulovla muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər barədə həmsöhbət olduq:

***– Vüqar müəllim, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin fəaliyyət istiqamətləri barədə nə deyə bilərsiniz?***

– Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 iyul 2014-cü il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin və Naxçıvan Muxtar Respublikası Kompüter Təlim-Tədris və İnternet Mərkəzinin bazasında yaradılmışdır.

Mərkəzin fəaliyyətinin əsas istiqaməti Naxçıvan Muxtar Respublikası ərazisində inzibati və təsərrüfat obyektlərini, hüquqi və fiziki şəxsləri, ümumiyyətlə, muxtar respublika əhalisini internetlə təmin etmək, internetlə əlaqədar müxtəlif xidmətlər göstərmək, yeni texnologiyaları tədris etməkdir.

Mərkəz yüksəkkeyfiyyətli internet xidmətləri göstərir, web səhifələrinin tərtibatı və hazırlanması, domen adlarının qeydiyyatı, elektron poçt ünvanlarının ayrılması, server sahələrinin icarəyə verilməsi, şəbəkələrin layihələndirilməsi və qurulması işlərini həyata keçirir, informasiya təhlükəsizliyinin təmin edilməsi, qlobal kiberhücumların qarşısının alınması, elektron informasiya ehtiyatlarının mühafizəsi sahəsində siyasətin hazırlanmasında və həyata keçirilməsində, "Elektron hökumət"in formalaşmasında və idarə edilməsində iştirak edir.






***– İnternet mərkəzindəki son yeniliklər barədə məlumat verməyinizi xahiş edirik.***

– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində mərkəzi idarəetmə serveri qurulmuş və lazımi proqram təminatı yaradılmışdır. Naxçıvan şəhərində yerləşən 12 muzeyə fiber-optik kabel xətləri çəkilmiş, müvafiq texniki avadanlıqlarla təchiz edilmişdir. Bununla da, muxtar respublika ərazisindəki 200-dən artıq tam orta və orta ixtisas məktəbinin muzeylərdən tədris edilən interaktiv tədris texnologiyasından istifadə etməsi üçün texniki imkanlar yaradılmışdır.

Bundan əlavə, sağlamlıq imkanları məhdud uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant təhsil sistemi yaradılmışdır. Distant təhsil dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunur. Bu sistemin muxtar respublikada da tətbiqi regionun hərtərəfli inkişafının göstəricisidir.

Yeni xidmətlərə enerji, qaz və su haqlarının elektron formada ödənilməsi də daxildir. Mütəxəssislərimiz tərəfindən hər üç müəssisənin elektron bazası formalaşdırılaraq avtomatlaşdırılmışdır. Muxtar respublika əhalisi artıq qeyd olunan xidmətlərə görə borclarını poçt məntəqələrində və real vaxt rejimində plastik kartlar vasitəsilə internet üzərindən ödəyə bilirlər. Bu sistem abunəçilərin onlayn rejimdə çevik ödəmə prosesini həyata keçirməyə imkan verir.

Bunun üçün abunəçilər ***www.e-hokumet.nmr.az*** saytına daxil olaraq onlayın ödənişlər bölməsindən həmin xidməti seçib, əgər varsa, ev telefonunun nömrəsini, yoxdursa, onlara verilmiş 9 rəqəmli kodu yazaraq ödəniş edə bilərlər. Elektron hökumət portalından qeydiyyatdan keçmək üçün öyrədici videolar da mövcuddur.

***– Genişzolaqlı internet şəbəkəsi muxtar respublikanın hansı ərazilərini əhatə edir?***

– Fiber-optik kabel xətlərinin, demək olar ki, bütün ərazilərimizi əhatə etməsi muxtar respublikada ən müasir texnologiyaların tətbiqinə geniş imkanlar açmışdır. Belə ki, muxtar respublikanın həm daxili, həm də xarici əlaqələrinin tam kəsintisiz həyata keçirilməsi, "Elektron hökumət", 4-cü nəsil xidmətlər, bank-maliyyə sisteminin tamamilə avtomatlaşdırılması, qeyd olunan distant təhsil sisteminin qurulması, onlayn ödənişlərin həyata keçirilməsində və digər ən mütərəqqi texnologiyaların Naxçıvanda tətbiq edilməsində fiber-optik şəbəkələr əvəzsiz rola malikdir. Bu gün muxtar respublikamızın yaşayış məntəqələrinin 98 faizində genişzolaqlı xidmətlər göstərilir.

***– Ən çox istifadə olunan elektron xidmət növü hansıdır?***

– Elektron hökumət portalında 34 təşkilatın 278 xidməti mövcuddur. Bunların əksərindən istifadə olunur. Bundan əlavə, xidmətlərə görə internet üzərindən ödənişlər getdikcə daha da populyarlaşır. Bu sahədə insanların məlumatlandırılması üçün işlər davam etdirilir.

***– Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kadr hazırlığı ilə bağlı hansı işlər görülməkdədir?***

– Mərkəzdə ixtisaslı mütəxəssislər fəaliyyət göstərirlər. Bu gün mərkəzdə işçi kompüter proqramlarından əlavə xüsusi (3D Max, Autocad kimi) proqramlar da tədris olunur. Tələbat nəzərə alınaraq ingilis və rus dillərinin də tədrisinə başlamışıq. Bu yaxınlarda mühasibatlıq işləri üçün kursun təşkilinə başlanacaqdır. Şərur və Culfa şəhərlərində də filiallarımız fəaliyyət göstərir.

Müasir informasiya texnologiyaları həlli mümkün olmayan çoxlu sayda problemlərin aradan qaldırılmasına imkan verir, informasiyanın həm istehsalçıları, həm də istehlakçıları üçün əlverişli şərait yaradır. Dünya təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsil alanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir.

Yazını tanınmış Amerika ixtiraçısı və biznesmeni, Apple şirkətinin yaradıcılarından biri Steve Jobsun fikirləri ilə bitirmək istəyirəm: "Şəxsi kompüter zəkamızın bir parçası olaraq bizə kömək olan vasitədir". İnternet də həmçinin. Biz çalışmalıyıq ki, İKT-nin nailiyyətlərindən səmərəli istifadə edək. Bunun üçün isə İKT-ni dərindən mənimsəyib, texnologiyanın bu əvəzsiz parçasından inkişafımızı sürətləndirmək üçün istifadə etməyi bacaraq.

✍ **Nərgiz İSMAYILOVA**

# Naxçıvan Biznes Mərkəzi fəaliyyətini genişləndirir

***Muxtar respublikamızda biznes mühitinin yaxşılaşdırılması və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün yaradılan şərait iqtisadi inkişafda mühüm rol oynayır. Müxtəlif istehsal və xidmət sahələri üzrə biznesə yeni başlayan sahibkarlara hərtərəfli köməklik göstərilməsi, cari məsələlərin həlli üçün vacib tədbirlərin keçirilməsi və muxtar respublikamızda istehsal olunan yerli məhsulları sərgiləmək baxımından Naxçıvan Biznes Mərkəzi xüsusi əhəmiyyətə malik bir müəssisədir.***




Naxçıvanlı sahibkarların fəaliyyətinin əlaqələndirilməsi və onları vaxtaşırı olaraq bir mərkəzdə toplamaq ideyası, şübhəsiz, muxtar respublikada sahibkarlıq fəaliyyətinin geniş vüsət alması ilə bağlıdır. Hələ 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya mərkəzi kimi fəaliyyətə başlayan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirmişdir. 2013-cü ildən isə mərkəz öz fəaliyyətini bu məqsəd üçün yeni inşa edilmiş binada davam etdirməkdədir. Biznes Mərkəzi kimi burada müasir tələblərə uyğun bütün şərait yaradılmışdır. Əsas missiyası sahibkarlara xidmət, biznesin inkşafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodoloji dəstək göstərilməsi olan Naxçıvan Biznes Mərkəzində ötən dövr ərzində yaddaqalan tədbirlər keçirilmişdir.

Mərkəzin ümumi sahəsi 2000 kvadratmetrdir. Binanın birinci mərtəbəsində muxtar respublikada istehsal olunan yerli məhsulların sərgiləndiyi geniş sərgi, 200 nəfərlik konfrans zalı, ikinci mərtəbədə 100 nəfərlik konfrans zalı və 200 nəfər iştirakçı üçün sinxron tərcümə dəsti, hər iki zalda təqdimatlar keçirmək üçün elektron lövhələr və sürətli internet vardır. Mərkəzdəki sərgi ilə tanış olmaq üçün gələn ziyarətçilərə ingilis və rus dillərində də danışa bilən ixtisaslı kadrlar xidmət göstərirlər.

Mərkəzdə olarkən bildirildi ki, hazırda burada muxtar respublikamızın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsullar nümayiş olunur. Sərgidə Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər 900-dən çox müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri olan Gəmiqaya Holdinq, Dizayn Holdinq, Araz Holdinq, Cahan Holdinq, Zümrüd Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutmuşdur. Milli dəyərlərimizin mühüm nümunələri olan xalçaçılıq, dekorativ-tətbiqi sənət, dulusçuluq, rəssamlıq və ağac üzərində oyma işləri də sərgilənir. Mərkəzin nəzdində xalq yaradıcılığı emalatxanası və iki satış mağazası fəaliyyət göstərir. Qeyd edək ki, mərkəzdə ağac üzərində oyma sənəti, rəssamlıq üzrə sənətkarların fərdi sərgiləri də keçirilir. Müəssisə bu məqsədlə müraciət edənlərə fərdi sərgilərinin təşkili üçün ödənişsiz xidmət göstərməyə hazırdır.

Naxçıvan Biznes Mərkəzində hər il naxçıvanlı sahibkarların iştirakı ilə müxtəlif tədbirlər keçirilir. Bu il mərkəzdə keçirilmiş yaddaqalan tədbirlər kimi Türkiyə Respublikası Şərqi Anadolu İxracatçılar Birliyinin nümayəndələrinin və İranın Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktorunun naxçıvanlı iş adamları ilə keçirdiyi görüşləri göstərmək olar. Ötən il də mərkəzin fəaliyyəti bu baxımdan çox əlamətdar olmuşdur. Yetmiş beş xarici şirkətin və 120-dən çox yerli sahibkarların iştirakı ilə Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısının keçirildiyi Naxçıvan Biznes Mərkəzi buraya gələn bütün ziyarətçilərdə böyük təəssürat yaratmışdır. Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən möhtəşəm layihələrlə, onun zəhmətsevər insanlarının istehsal etdiyi məhsullarla, yaratdığı əl işləri, sənət əsərləri ilə tanış olmaq istəyənlər üçün Naxçıvan Biznes Mərkəzinin qapıları həmişə açıqdır.

✍ **Əli CABBAROV**

# “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş dəyirmi masa

Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2015-ci il tarixli “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” Sərəncamı milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsilləri Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilib. Tədbirlər planına əsasən, muxtar respublikada silsilə tədbirlər keçirilir.

Bu münasibətlə Kəngərli Rayon Mədəniyyət Evində dəyirmi masa təşkil edilib. Dəyirmi masada Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kərim Qazıbəyov çıxış edərək keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.

Tədbirdə filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun, Kəngərli Rayon Mədəniyyət Evinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Tofiq Rüstəmovun, Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi Famil Süleymanovun, Xok kənd tam orta məktəbinin müəllimi Mürvət Hüseynlinin çıxışları olub. Qeyd edilib ki, “Kitabi-Dədə Qorqud” dastanı qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, birlik dastanı olmaqla yanaşı, həm də qeyrət, ləyaqət, insanpərvərlik kimi əxlaqi, milli-mənəvi dəyərlərlə zəngin olan və gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi abidədir. Milli dəyərlərin mühüm tərkib hissəsi olan vətənpərvərlik, qəhrəmanlıq, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir. Dastanda baş sərkərdədən tutmuş böyükdən-kiçiyə bütün qəhrəmanların doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqları nümayiş etdirilir.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin “Kitabi-Dədə Qorqud” dastanının təbliği istiqamətində gördüyü işlərdən ətraflı bəhs ediblər.

**Nigar MUSTAFAYEVA**

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə görüş keçirilib. Görüşü giriş sözü ilə xidmətin əməkdaşı Rahib Kərimov açaraq keçirilən tədbirin mahiyyətindən danışıb.*

# Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə növbəti görüş



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov “Azərbaycan xalqının adət-ənənələri və bayramları” mövzusunda çıxış edərək bildirib ki, hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri onun adət və ənənələridir. Bu baxımdan qloballaşan dünyada milli adət və ənənələr, onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir.

Qeyd olunub ki, dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı da özünün zəngin milli, əxlaqi dəyərləri ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verib. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolu yüksək qiymətləndirən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev demişdir: ***“Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir”.***

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, İslam dininin bəşəri hisləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir.

Vurğulanıb ki, xalqımızın milli bayramları içərisində Novruz bayramı özünəməxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki, istər çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkərçörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrəmizi bəzəyir. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir. Milli adət-ənənələrimizin, bayramlarımızın slaydlarla nümayiş etdirildiyi tədbirdə bildirilib ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda milli dəyərlərin, adət-ənənələrin qorunmasına və yaşadılmasına böyük diqqət göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamına əsasən, muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər mühüm əhəmiyyət daşıyır. Belə tədbirlər unudulmaqda olan milli-mənəvi dəyərlərin yenidən xalqımıza qaytarılmasında, onların geniş şəkildə tətbiq və təbliğ olunmasında əvəzsiz rol oynayır.

Sonra görüş iştirakçılarına “Naxçıvan 2003-2013: hədəflər, inkişaf, nəticələr” kitabı paylanıb.

Sonda tədbir iştirakçıları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.

**✍ Səbuhi HƏSƏNOV**

***Muxtar respublikamızda fəaliyyət göstərən tam orta məktəblərdə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, səmərəliliyinin artırılması həyata keçirilən səhiyyə islahatlarında mühüm yer tutur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şagirdlərin sağlamlıqlarının daha da yaxşılaşdırılması barədə təsdiq olunmuş tədbirlər planında bu sahədə görüləcək işlərin məzmunu, icra vaxtı, icraya məsul müəssisələrin adları öz əksini tapmışdır. Həmçinin nazirlikdə məktəb tibb məntəqəsində çalışan tibb işçisinin vəzifələri, təhsil müəssisələrində sanitar-gigiyenik tələblər hazırlanaraq müvafiq tibb müəssisələrinə verilmişdir.***

# Ümumtəhsil məktəblərində tibbi xidmətin səmərəliliyi artırılır

Nazirlik tərəfindən bu tədbirlər Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”na, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 4 oktyabr tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsinə dair edilmiş dəyişikliyə uyğun olaraq aparılır.

Uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan vermişdir. Məktəbyaşlı uşaqlar arasında mütəmadi olaraq həyata keçirilən bütün bu tədbirlər, o cümlədən kütləvi oftalmoloji, stomatoloji, ortopedik, psixiatrik, endokrinoloji müayinələr nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə nəzərəçarpan müsbət dinamika müşahidə olunur. Xəstəliklərin və əlillik hallarının əksəriyyətinin təməlinin uşaq yaşında qoyulduğunu nəzərə alaraq uşaqlar arasında xəstəliklərin vaxtında aşkar edilməsi məqsədilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır.

Hazırda muxtar respublikanın rayon və kəndlərində fəaliyyət göstərən məktəblərdə tibbi xidmət rayon mərkəzi xəstəxanaları, ambulatoriyalar, feldşer-mama məntəqələrinin tibbi heyəti tərəfindən aparılır. Şərur Rayon Mərkəzi Xəstəxanasının Poliklinika şöbəsində, Şərur şəhərində yerləşən 1, 2 nömrəli və Ərəbyengicə, Kürçülü, Kürkənd, Düdəngə, Cəlilkənd, Püsyan kəndlərində yerləşən tam orta məktəblərdə tibbi xidmət məktəbin tibb bacıları tərəfindən icra olunur.

Təhsil ocaqlarında tibbi xidmət göstərən heyət məktəbin rəhbərliyi ilə birlikdə şagirdlərin sağlamlığı və inkişafı, müalicə-profilaktik tədbirlərin keçirilməsi, sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə riayət olunması, şagirdlərin düzgün qidalanması, onların fiziki və əqli yükünün normal balanslaşdırılması üçün məsuliyyət daşıyır.

Naxçıvan şəhər məktəblərində isə tibbi xidmət Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası Poliklinika şöbəsinin təhsil müəssisələrində fəaliyyət göstərən pediatrik kabinələrinin həkim-pediatrları və tibb bacıları tərəfindən həyata keçirilir. Şəhərin 2, 3, 7, 10, 12 nömrəli tam orta məktəblərində səhiyyə xidmətinin göstərilməsi üçün tibb otaqları ayrılmış, çəki və boyölçən, tibbi taxt, dərman şkafı və şagirdlərə ilk təcili yardım göstərilməsi üçün dərmanlarla təchiz edilmişdir. Tibb otaqlarında həkim-pediatr və tibb bacıları fəaliyyət göstərirlər. Onların iş rejimi Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi tərəfindən təsdiq edilmiş rəsmi iş qrafiki ilə tənzimlənir. Məktəbdə fəaliyyət göstərən tibb bacıları $9^{00}$-dan $15^{30}$-dək, həkim-pediatrlar isə həm də sahələrdə çalışdıqları üçün baş həkim tərəfindən təsdiqlənmiş cədvəl əsasında məktəbdə tibbi xidmət göstərirlər. Tibb otağında həkimlərin iş qrafiki, şagirdlərin tibbi sənədləri (Forma №26) yığılmış qovluq, baş həkim tərəfindən təsdiq olunmuş həkim və tibb bacısına aid iş planı, məktəb üzrə həkim və tibb bacılarının vəzifə təlimatları, ilk tibbi yardım, səhiyyə maarifi, infeksion xəstəliklər, otaqların, qovşaqların sanitar vəziyyəti, dispanser, uşaqların sağlamlığı ilə bağlı dərsə davamiyyət, qida blokuna nəzarət, mantu jurnallarında lazımi qeydlər vaxtlı-vaxtında aparılır, hər hansı bir xəstəlik nəticəsində dərs buraxmış şagirdlərə həkim tərəfindən verilən arayışlar öz əksini tapır.

Məktəblərdə dezinfeksiya məqsədilə xlordan istifadə edilir. Xlorlu məhlul gigiyena və epidemiologiya mərkəzləri tərəfindən verilmiş təlimata uyğun hazırlanır.

Məktəb bufetləri səliqəli saxlanılır, satılan qida məhsullarının üzərində yerli məhsullar olduğunu, buraxılma tarixini və son istifadə müddətini bildirən əmtəə nişanı vardır. Ərzaqların düzgün saxlanma qaydalarına riayət edilir.

Mərkəzi Uşaq Xəstəxanası tərəfindən hər tədris ilində 2 dəfə olmaqla, ixtisaslı həkimlərdən (oftalmoloq, stomatoloq, ortoped, endokrinoloq, LOR-həkim, pediatr, ftiziatr, psixiatr və sair) ibarət həkim briqadası yaradılır və məktəblərdə şagirdlər tibbi müayinələrdən keçirilirlər. Vərəm xəstəliyinin erkən aşkarlanması məqsədilə müxtəlif yaş qruplu şagirdlər mantu sınaqlarına cəlb edilirlər.

Mərkəzi Uşaq Xəstəxanasında hər həftənin çərşənbə günü Poliklinika şöbəsində keçirilən iclasda məktəb tibb bacılarının iştirakı ilə görülən işlər müzakirə edilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Fiziki imkanları məhdud insanlar tərəfindən toxunan isti geyimlər hərbi hissəyə təhvil verilib

***Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi də tapşırılmışdı.***

Müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı görülən tədbirlərin davamı olaraq, noyabrın 27-də “N” hərbi hissəyə yun corablar və şərflər təhvil verilmişdir.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev çıxış edərək bildirmişdir ki, bu gün məhdud fiziki imkanlı 27 şəxs tərəfindən toxunan 771 cüt yun corab və 231 ədəd şərf “N” hərbi hissəyə təhvil verilir. Ümumilikdə isə bu gün də daxil olmaqla, 2500 cüt yun corab və 500 ədəd şərfin toxunaraq əsgərlərimizə təhvil verilməsi təmin edilmişdir. Bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına xidmət edir. İlin sonunadək yun corab və şərflərin toxunması işi davam etdiriləcək.

“N” hərbi hissənin nümayəndəsi gizir Kazım Qasımov komandanlıq adından minnətdarlığını bildirmişdir.

Sonda yun corablar və şərflər əsgərlərə təhvil verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Paralimpiyaçılar arasında qol güləşi idman növü üzrə turnir keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə paralimpiyaçılar arasında qol güləşi idman növü (armrestlinq) üzrə turnir keçirilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdiyi turnirin məqsədi sağlamlıq imkanları məhdud idmançılar arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə, onların asudə vaxtlarının səmərəli keçirilməsinə nail olmaqdır. Belə tədbirlər sağlamlıq imkanları məhdud insanlar arasında idman və dostluq əlaqələrinin möhkəmləndirilməsi, onların idmana olan marağının daha da artırılması, cəmiyyətə inteqrasiyasının gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Beynəlxalq armrestlinq qaydalarına əsasən keçirilən turnirdə 20 paralimpiyaçı 2 çəki dərəcəsində (75 kiloqrama kimi və 75 kiloqramdan yuxarı idmançılar) mübarizə aparıblar.

Turnirdə ilk üç yeri tutan idmançılara nazirliyin diplomları və federasiyanın hədiyyələri təqdim olunub. Digər iştirakçılar isə həvəsləndirici hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 899**